

İlqar Müzəffər oğlu
AJB-nin üzvü

> *Ermənilər Suriyadan gətirilən "qaxdağan"ları dədə-baba torpaqlarına yerləşdirdikdən sonra, 60-cı illərdə daha da azğınlaşmağa başladılar. Belə ki, onlar arasında millətçiliyi alovu və şovinizm başladı. Bu dəfə onlar azərbaycanlıları respublikadan tam təmizləmək üçün yollar axtarırdılar. Bunun üçün ziyalılar bu və ya digər üsulları rəhbər işlərdən uzaqlaşdırır, bəzən onlara şər atmaq yolunu seçir, terror edir və respublikadan çıxmağa məcbur edirdilər. Tutduğu vəzifədən çox-çox yüksəkdə dayanan Tapdıq Muxtar oğlunun Basarkeçər kimi bir rayonda katib işləməsi də ermənilərin maraqlarına uyğun deyildi. 1960-cı ildə erməni daşnaklarının təsiri ilə Mərkəzi Komitə qərar qəbul etdi ki, Tapdıq Əmiraslanovu Mərkəzə aparsınlar və onu Basarkeçər rayonunun katibliyindən azad etsinlər*

## Sayılıb-seçilən Qərbi azərbaycanlılar

# Dağ vüqarlı insan

***Zaman-zaman hər dövrdə insanları öz ardınca aparan, ona ağsaqqallıq edən, çətinliklərdən çıxış yolunu göstərən elin, obanın, mahalın qeyrətli oğulları olub. Bəzən elə olub ki, həmin şəxslər təkcə bir elin, obanın çərçivəsinə sığmayıb, onun şanı, şöhrəti, səs-sorağı sərhədləri aşaraq daha uzaqlardan gəlibdir. Belə şəxsiyyətlərdən biri də Ulu Göyçədə doğulub boya-başa çatan, mahalın həyanına, köməyinə çevrilən Tapdıq Muxtar oğlu Əmiraslanov olub.***

### T.Əmiraslanov kimdir?

O, 1918-ci ildə Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində dünyaya göz açıb. Atasını çox erkən itirən, T.Əmiraslanov təhsil almaqla bərabər, ailənin bütün (qayğıları və çətinliklərini bərkiməmiş çiyinlərinə götürüb. Gənc yaşlarından qayğı çəkmək, kömək etmək kimi nəcib insani keyfiyyətlərə malik bu gözəl insan sonralar bütün mahalın, elin-obanın dərdini çəkməli olub. Müasirlərinin bildirdiyinə görə, Tapdıq müəllim gəncliyindən çox vüqarlı və qürurlu olub. Yəni ulu babaların dediyi kimi, düşmənə bac verməyən kişilərdən olub. Totalitar rejimin "mənəm-mənəm" deyən vaxtında, heç kəsə boyun əyməyib, öz sözünü qorxmadan, çəkinmədən qətiyyətlə insanların üzünə deyə bilib.

O, ilk təhsilini İrəvanda, Pedaqoji Texnikumunda başa vurub. Müəllimlik fəaliyyətinə başladığı müddətdən çox keçmir ki, Qaraqoyun kəndində məktəb direktoru təyin olunub. Tarixi, riyaziyyatı, bir sözlə, humanitar və dəqiq elmləri kamil bilib.

***Tezliklə mahalın sevimlisinə çevrilib, bu da onun rayon partiya komitəsinə məsul vəzifəyə təyin olunmasına səbəb olub. 1951-ci ildə Basarkeçər partiya komitəsinin katibi seçilib. Onun dəmir məntiqi, ağıllı mühakimələri, bir sıra dillərdə sərbəst danışması o vaxtkı Mərkəzi Komitənin diqqətini cəlb edir. Tez bir zamanda onun rayonun ikinci katibliyinə namizədliyi verilir. Həmin illərdən etibarən xalqın maarifinə, mədəniyyətinə T.Əmiraslanov xeyli diqqət artırıb. Azərbaycan kəndlərində ikimərtəbəli məktəb binalarının tikilməsinə, 8 illik məktəblərin ləğv olunmasına şərait yaradıb. Sevimli şair, yazıçı və ziyalılarımızla dostluq əlaqələri olub. Onun sevimli şairimiz Səməd Vurğunla dostluq əlaqələrinin maraqlı tarixçəsi var. S.Vurğun həmişə geniş qəlbli, yüksək intellektə və savada sahib olan Tapdıq müəllimə həmişə hörmətlə yanaşıb, onun xalqımız üçün göstərdiyi xidmətləri yüksək qiymətləndiribdir.***

T.Əmiraslanov 1948-1953-cü illərdə soydaşlarımızın dədə-baba torpaqlarından deportasiya zamanı da əlini əlinin üstünə qoymayıb. Ermənilərin məkrli siyasəti nəticəsində Stalinin soydaşlarımızın Azərbaycana deportasiya edilməsinə mənfi münasibət bəsləyib. Deportasiyanın qarşısının alınmadığını gördükdə isə, təmiz dağ havasında, yaşayan insanların Aranın ilanmələyən düzlərinə yerləşdirilməsinə qarşı çıxıb. Soydaşlarımızın könüllülük prinsipi əsasında yerləşdirilməsini əsas gətirərək, onların Xanlar-Şəmkir ətrafında yerləşdirilməsində böyük rol oynayıb. O, raykomun birinci katibi T.Musayev ilə Azərbaycan Mərkəzi Komitəsinə xüsusi bir nümayəndə heyəti göndərib. O zaman heyətin tərkibində Zod kəndinin sovet sədri B.Hacıyev, partkom G.Nəsirov və Ə.Rzayev də var idi. Aparılan danışıqlardan sonra Zod kəndinin bir hissəsi Mil zonasına deyil, Xanlar rayonuna köçürülür. Zodun böyük bir hissəsi - 400 ev, ilkin köçə ərizə vermir, amma, ermənilər çox çalışırdılar ki, türklərin sayının azaldılması üçün, Göyçə mahalının ən böyük kəndi sayılan Zodun sakinləri köçürülsün. Çünki bu, onlar üçün çox vacib idi. Tarixən bu kənddən qorxan ermənilər Zodu çıxarıb, xaricdən aldadılıb gətirilən erməniləri ora köçürmək istəyirdilər.

Qeyd edək ki, T.Əmiraslanovun gənclərə qayğı və diqqəti həmişə ön plana çəkilib. O, deyirdi: -

1948-ci ildə Stalin-Mikoyan sövdələşməsi ilə Göyçənin əsl repressiyası başlandı. Adamlar köçürüldü. Sayca azalma getdi. Lakin biz burada qalıb fəaliyyət göstərməklə, adamların bu yerə bağlılıqlarını artırırıq. Əgər mən köçüb getsəm, mənim arxamca mahalın yarısı axıb gedər.

> *Ad dəyişmək tarixi baltalamaq kimi bir şeydir. Həm də hər bir adın arxasında dünya etnoqrafiyası durur. Bu hərəkət beynəlxalq əxlaq normalarına yaddır. Əgər biz bu gün Basarkeçərin adını dəyişsək, sabah Yerevanın, sonrada biri rayon və kəndlərin adını dəyişdirməliyik. Həm də indi tarixçiləri deyirlər ki, onun 2,5 min illik dövlət tarixi varsa, onda gəlin görək sizin dediyiniz kimi sonralar Basarkeçər adlanan bu mahalın əvvəlki adları nə olub? Əgər bunu bilirsinizsə, onda ayrı adlar seçmək nəyə gərəkdir, elə köhnə adını bərpa edin. Görünür bu yerin tarixi adı da elə indiki kimi olub. Siz bilirsiniz ki, Basarkeçərdə ermənilərin məskunlaşması tarixi o qədər də uzaq illərə aid deyil*



***Tapdıq müəllim mahalın qabaqcıl, hörmətli ziyalılarının mahal, el-oba üçün böyük əhəmiyyət kəsb etdiyini, lazımlı olduğunu çox gözəl anlayırdı.***

Ermənilər Suriyadan gətirilən "qaxdağan"ları dədə-baba torpaqlarına yerləşdirdikdən sonra, 60-cı illərdə daha da azğınlaşmağa başladılar. Belə ki, onlar arasında millətçiliyi alovu və şovinizm başladı. Bu dəfə onlar azərbaycanlıları respublikadan tam təmizləmək üçün yollar axtarırdılar. Bunun üçün ziyalılar bu və ya digər üsulları rəhbər işlərdən uzaqlaşdırır, bəzən onlara şər atmaq yolunu seçir, terror edir və respublikadan çıxmağa məcbur edirdilər. Tutduğu vəzifədən çox-çox yüksəkdə dayanan Tapdıq Muxtar oğlunun Basarkeçər kimi bir rayonda katib işləməsi də ermənilərin maraqlarına uyğun deyildi. 1960-cı ildə erməni daşnaklarının təsiri ilə Mərkəzi Komitə qərar qəbul etdi ki, Tapdıq Əmiraslanovu Mərkəzə aparsınlar və onu Basarkeçər rayonunun katibliyindən azad etsinlər. Belə bir addım atmaqla, Göyçə mahalını arxasız, dayaqsız qoymaq istəyirdilər. Ona görə plenum çağırıldı. Lakin iki gün davam edən plenumda buna nail ola bilmədilər. Belə bir qərar çıxardılar ki, büronun tərkibi seçilsin. Tərkib təklif edildikdə T.Əmiraslarnov yekdilliklə tərkibə seçildi. Onu rayondan uzaqlaşdırmaq mümkün olmadı. Maarif şöbəsinin müdiri işləyən Tapdıq Əmiraslanov ömrünün sonuna kimi büro üzvlüyündə qaldı.

1962-ci ilin sentyabr ayında büro üzvlərinin iclası çağırılır. Həmin vaxt Basarkeçər rayonunun birinci katibi erməni idi. Büroda bir məsələ də Basarkeçər rayonunun adının dəyişməsi idi. Söz Tapdıq müəllimə verilir:

- Ad dəyişmək tarixi baltalamaq kimi bir şeydir. Həm də hər bir adın arxasında dünya etnoqrafiyası durur. Bu hərəkət beynəlxalq əxlaq normalarına yaddır. Əgər biz bu gün Basarkeçərin adını dəyişsək, sabah Yerevanın, sonrada biri rayon və kəndlərin adını dəyişdirməliyik. Həm də indi tarixçiləri deyirlər ki, onun 2,5 min illik dövlət tarixi varsa, onda gəlin görək sizin dediyiniz kimi sonralar Basarkeçər adlanan bu mahalın əvvəlki adları nə olub? Əgər bunu bilirsinizsə, onda ayrı adlar seçmək nəyə gərəkdir, elə köhnə adını bərpa edin. Görünür bu yerin tarixi adı da elə indiki kimi olub. Siz bilirsiniz ki, Basarkeçərdə ermənilərin məskunlaşması tarixi o qədər də uzaq illərə aid deyil.

***Ad dəyişməyə gələndə onda ermənilər də bir sıra mənəvi dəyərlərdən və adlardan məhrum olsun. Məsələn, onda gərək Sayat Novadan və buna oxşar yüzlərlə adlardan əl çəkəsiniz. A.Şirvanzadənin 'Namus" əsərinin də, yaxud məşhur 'Mantena Dara'nın da adları dəyişməli olacaqsınız. Ayrı-ayrı adamların qoyduqları ad uzun ömürlü olmur. Bir də ki, ad dəyişməklə milli münasibətləri korlaya bilərik.***

Heç şübhəsiz ki, həssas qəlbli bu insanın şairlik qabiliyyəti də var idi. Saz-söz vurğunu şer həvəskarı idi. Səməd Vurğunun "Vaqif" mənzum dramını əzbərdən bilirdi. Elə İrəvanda Səməd Vurğunla görüşü zamanı dramdan misallar gətirməsi şairin diqqətini cəlb etmiş, onunla dost olmuşdu. Onun əsgərlikdə sevgilisinə yazdığı şerindən üç yarpaq oxucuların diqqətinə çatdırırıq:

### "Bənövşə"

**Niyə mənim kimi əyib qəddini,**
**Əymisən boynunu yana bənövşə.**
**Zəif ləçəklərin, gözəl əndamın,**
**Oxşayır sultana, xana bənövşə.**

**Kim səni qoparıb, kim səni dərdi,**
**Kim səni qoparıb boynunu əydi,**
**Kim səni gətirib yağıya verdi,**
**Sürgün etdi, bu viranə bənövşə.**

**Yenə kol dibində büküb boynunu,**
**Seyr edirsən bu dünyanın oynunu.**
**Sal yadına Tapdıq Xanım toyunu,**
**Çək zərif tellərə hana bənövşə.**

Onun haqqında çox deyib, çox yazmaq olar. Düzdür, onun haqqında şeirlər, məqalələr, poemalar yazılıb. Haqqında yazılan ən yaxşı poema isə Misir Subatanlının "Tapdıq Əmiraslanov Göyçəyə sipəriydi" poemasıdır. Xalqın görkəmli ictimai xadimi T.Əmiraslanov dünyaya necə məğrur və əyilməz gəlmişdirsə, 1976-cı ildə eləcə də getdi. Amma, yaddaşlarında onu tanıyanların xatirəsində xeyirxah, nəcib, həssas qəlbli bir insan kimi qaldı. Mahal, el-oba üçün çox şerlər qurdu, yaratdı. Amma, onun ən böyük həyati əsəri və yaradıcılığı dünya şöhrətli alim olan Əhliman Əmiraslanov oldu. Onun elmi ixtiraları dünyanın məşhur elm ocaqlarının tibb sahəsində tətbiq olunmaqdadır.

***Oğlanları Zəfər və Vaqif də bacarıqları və savadları ilə ataları T.Əmiraslanov kimi xalqının, millətinin xidmətində dayanıblar.***